**UOT: 316**
**DOI:10.30546/sw.2023.2(41).133**

# DAVAMLI İNKİŞAFDA DİNİ DƏYƏRLƏR

**Azadə Quliyeva**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
e-mail: azadaqulieva@gmail.com
https://orcid.org0009-0007-6087-4585

**Xülasə:** Məqalə davamlı inkişafda dini dəyərlərin rolunun öyrənilməsinə həsr olunub. Müəllif davamlı inkişaf probleminin geniş təhlilini aparır, bu fenomenin mahiyyətini təsvir edir. Məqalədə davamlı inkişafa təsir edən əsas komponentlərdən biri olan dinin cəmiyyətdəki rolu ətraflı araşdırılır. Eyni zamanda, cəmiyyətin formalaşmasına və xalqların tarixi taleyinə təsir göstərən dini dəyərlər də öyrənilir.

**Açar sözlər:** davamlı inkişaf, sosial-iqtisadi inkişaf, konsepsiya, din, dini dəyərlər, dini şüur.

Son illərdə davamlı inkişaf problemləri ilə bağlı məsələlər həm dövlətlərüstü, həm də milli səviyyədə müzakirə obyektinə çevrilmişdir. Bu məsələlərə marağın durmadan artması çoxsaylı beynəlxalq təşəbbüslər və çoxlu sayda elmi nəşrlərlə bağlıdır. Davamlı inkişaf nəzəriyyəsinin hazırkı vəziyyətini təsvir edərkən qeyd etmək lazımdır ki, hazırda bu fenomenin mahiyyətini və müvafiq konsepsiyanın məzmununu şərh etmək üçün ümumi qəbul edilmiş bir yanaşma yoxdur. Bütün bunlar davamlı inkişafın nəzəri əsaslarının formalaşdırılması prosesinin başa çatmadığını, davamlı inkişaf fenomeni ilə bağlı tutarlı, ümumi qəbul edilmiş baxışlar sisteminin olmamasından xəbər verir. Bu isə ilk növbədə onunla bağlıdır ki, həmin fenomenin şərhinə mövcud yanaşmaların sistemləşdirilməsi və inteqrasiyası vəzifələri öz aktuallığını itirməmişdir.

Bir çox tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, davamlı inkişaf məsələləri üzrə tədqiqatların aktuallığı və tələbatı bir çox koqnitiv, nəzəri və praktiki səbəblər; bir sıra uzunmüddətli iqtisadi və sosial tendensiyaların, qlobal risklərin və çağırışların formalaşması; artımın və sosial-iqtisadi inkişafın yeni modelinin axtarışı, onun fərqli xüsusiyyəti dayanıqlı inkişafa diqqət yetirilməsi ilə bağlıdır [4].

Davamlı inkişaf problemlərinə dair nəşrlərin təhlili belə nəticəyə gəlməyə imkan verir ki, dayanıqlı inkişaf fenomeninin öyrənilməsinə bəzi ümumi tədqiqat yanaşmaları formalaşmışdır: birincisi, üçlü yanaşma meydana gəlmişdir (bu, davamlı inkişafın üç əsası ideyasına əsaslanır: iqtisadi, ekoloji və sosial); ikincisi, davamlı inkişafın mikroiqtisadi aspektləri formalaşmış və davamlı inkişafın problemləri də daxil olmaqla, tədqiqat sahəsinin genişləndirilməsinə zərurət yaranmışdır.

Davamlı inkişaf konsepsiyası hazırda BMT-nin üzvü olan bütün ölkələr tərəfindən bəşəriyyətin prioritetlərindən biri kimi tanınır ki, ona keçid milli və qlobal səviyyədə baş verməlidir. Davamlı inkişaf konsepsiyasının formalaşması 60-cı illərin sonu, 70-ci illərin əvvəlləri üçün xarakterik olan elm və iqtisadiyyatın fəal ekolojiləşdirilməsi prosesinin məntiqi nəticəsi idi. Ətraf mühitin çirklənməsi, əhalinin həddindən artıq çoxalması və təbii ehtiyatların məhdudluğu problemlərinin kəskinləşməsi bir sıra Qərb ölkələrinə xas olan mövcud istehlak modelini saxlamaqla inkişaf perspektivləri və qlobal böhranın qaçılmazlığı ilə bağlı sualları aktuallaşdırmaya bilməzdi. Nəticədə, geniş istehlaka təbii reaksiya olaraq, qaçılmaz qlobal böhran ideyası yarandı: həddindən artıq əhalinin, həddindən artıq istehsalın, ekoloji fəlakətlərin çoxalması.

Qlobal böhranın mahiyyətini elmi dərk etmək üçün ilk cəhdlərdən biri 1968-ci ildə “Roma Klubu” (bir qrup nüfuzlu sahibkar, iqtisadçı, məşhur alim və siyasətçi tərəfindən yaradılmış qeyri-hökumət təşkilatı) tərəfindən edilib. Onun əsas məqsədi qlobal tarazlığa nail olmaq üçün qlobal böhranın təhlili üsullarını hazırlamaq idi. Elmi ictimaiyyət Roma Klubunun fəaliyyətinin praktik əhəmiyyətini əvvəlcə tam qiymətləndirmədi; bu, əsasən, artan təhlükələri və ortaya çıxan problemləri tanımaq istəməməsi, “çiçəklənən cəmiyyət” imicini məhv etmək qorxusu və “gələcəyin post-sənaye

cəmiyyəti”nə birbaşa keçidlə əlaqəli idi. Çünki əvvəlki nisbətən çiçəklənən onilliklər fonunda bütün bunlar köhnə dünyagörüşü prinsiplərinin və əsaslarının süqutu kimi görünürdü [8, 43].

Təbii ki, yaranan konsepsiyanın elmi əsaslandırılması lazım idi. Bu məqsədlə 1970-ci ilin iyulunda amerikalı riyaziyyatçı C. Forresterə davamlı inkişaf modelini hazırlamaq tapşırıldı. O, seçilmiş dəyişənlərin qarşılıqlı asılılığını təsvir edən qırx qeyri-xətti tənlikdən ibarət “Mir-1” modelini təklif etmişdi. Model dünya sisteminin əsas proseslərini kobud surətdə təqlid edən primitiv sistem kimi tənqid olundu və “Mir-2” modelinə çevrildi. C. Forresterin məsləhəti ilə 1970-ci ildən 2100-cü ilə qədər “Mir-3” uzunmüddətli inkişaf dövrünün modeli üzərində iş onun köməkçisi professor D.Medousa həvalə edildi. Forrester layihənin elmi rəhbərliyini özündə saxladı və 1971-ci ildə yeni kompüter modelinin bir çox aspektlərini əks etdirən “Dünya dinamikası” monoqrafiyasını nəşr etdi [7].

1972-ci il iyunun 16-da keçirilən və hazırlıqları Roma Klubunun işi ilə paralel aparılan Stokholm Konfransı hökumət və biznesin inteqrasiyası məqsədini güdürdü ki, bu da davamlı inkişaf konsepsiyasının mezo səviyyəyə keçidini göstərirdi. Nəticədə beynəlxalq fəaliyyətin “yumşaq qanunları” toplusu nəşr edilmiş və bəyannamə qəbul edilmişdir ki, burada davamlı inkişafın “ayrıca dərk edilən problemləri” ilk dəfə olaraq sistematik şəkildə təqdim olunur və tədqiq edilir, qlobal böhranın səbəblərinin təhlili aparılır, “iqtisadi və sosial inkişafın həlledici əhəmiyyət kəsb etdiyi” davamlı inkişaf prinsipləri tərtib edilir.

Davamlı inkişaf konsepsiyasının təkamülünün birinci mərhələsi (1968-1983) nəticəsində bu konsepsiyanın əsas ideyaları formalaşdırıldı, onun sistem böhranının aktuallığı əsaslandırıldı, konsepsiyanın regional inkişafa genişlənməsi və mezosəviyyə (regionlar, şəhərlər, ərazilər) başlandı, davamlı inkişaf modelləri müəyyən edildi. Nəzərdən keçirilən konsepsiyanın təkamülünün ilkin mərhələsində özünü qabarıq şəkildə əks etdirən elmin ekolojiləşdirilməsi tədricən öz yeganə rolunu itirdi.

1984-cü ildən başlayaraq dünya alimlərinin ətraf mühit və inkişaf üzrə təkliflərini toplayan xanım Q.X. Brundtland 1987-ci ildə 23 ölkənin ekspertlərinin köməyi ilə hazırlanmış “Bizim ümumi gələcəyimiz” adlı əsas məruzəni BMT Baş Assambleyasına təqdim etmişdir [5, 24].

Bu konsepsiyanın əsas məğzi: “Gələcək nəsillərin həyatını təhlükə altına qoymadan, indiki nəsillərin tələbatının sosial, iqtisadi və ekoloji cəhətdən normal ödənilməsi”ndən ibarətdir. Q.X.Bruntlandın rəhbərliyi ilə hazırlanmış “Bizim ümumi gələcəyimiz” adlı məruzə BMT Baş Assambleyasının təşəbbüsü ilə müxtəlif ölkələrə yayılmış və bir çox dillərdə kitab şəklində çap olunmuşdur [6].

1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində (qısa şəkildə: RİO-92) keçirilmiş Ətraf mühit və inkişaf üzrə BMT konfransı “XXI əsrin Gündəliyi”, “Rio Bəyannaməsi” və digər sənədləri əhatə edən müasir cəmiyyətin Davamlı İnkişaf Konsepsiyasını qəbul etdi. Bu sənəd təkcə ətraf mühitin mühafizəsi məsələsi ilə məhdudlaşmır, eyni zamanda ayrı-ayrı ölkələrdə insanla ətraf mühitin ahəngdarlığına əsaslanan uzunmüddətli iqtisadi, sosial və ekoloji inkişaf strategiyasını nəzərdə tutan bütöv bir konsepsiyadır. Ümumiyyətlə, Davamlı İnkişaf konsepsiyasının əsas məntiqi mahiyyətində Planetin təbii ehtiyatlarından səmərəli və qənaətlə istifadə, təbii mühitin qorunub saxlanılması, indiki və gələcək nəsillərin həyat keyfiyyətinin yaxşılaşdırılması şərtilə insanların tələbatının ağıllı şəkildə ödənilməsi və bütün dünyada sülhün saxlanılmasına yönəlmiş sosial-iqtisadi və ekoloji inkişafı nəzərdə tutulur [1, 21].

Yuxarıda da qeyd edildiyi kimi, davamlı inkişafın ən geniş yayılmış üçlü yanaşması üç aspekti nəzərdən keçirir: ekoloji, sosial və iqtisadi. Bir qayda olaraq, davamlı inkişaf yalnız sadalanan üç komponentin hər birinin davamlılığı formalaşdıqda əldə edilə bilər.

Davamlı inkişafın ekoloji komponenti təbii sistemlərin bütövlüyünü, biosferin həyat qabiliyyətini və sabitliyini təmin etməlidir. Ekoloji nöqteyi-nəzərdən davamlı inkişaf bəşəriyyətlə ətraf mühit arasında qarşılıqlı əlaqənin, insanın və biosferin birgə təkamülü, təbiətlə cəmiyyət arasında qarşılıqlı əlaqənin uyğunlaşdırılması prosesi, “sivilizasiya strategiyası” kimi qəbul edilir.

Davamlı inkişafın sosial komponenti insanlara, sosial və mədəni sistemlərin sabitliyinin qorunmasına, o cümlədən nemətlərin ədalətli bölüşdürülməsi, mədəni kapitalın və qlobal müxtəlifliyin qorunması, qeyri-dominant mədəniyyətlərin inkişafı, sosial ədalətin əldə edilməsi,

sosial inkişafın təşviqi, plüralizm, münaqişələrin azaldılması, sosial sabitliyin qorunması, məhsuldar məşğulluğun genişləndirilməsi, sosial inklüzivliyin təşviqinə yönəlib.

Davamlı inkişafın iqtisadi komponenti məhdud iqtisadi resurslardan optimal istifadəni nəzərdə tutur. Davamlı iqtisadi inkişaf mövcud resurslardan səmərəli istifadəyə, ekoloji cəhətdən təmiz, enerjiyə qənaət edən və materiala qənaət edən texnologiyalardan, o cümlədən tullantıların minimuma endirilməsi və təkrar emalına əsaslanan balanslaşdırılmış iqtisadiyyata əsaslanır.

Heç şübhəsiz, müasir sosial inkişaf, sənaye texnologiyasının böhranı, təbii planetar biogen sabitlərin pozulması və bunun nəticəsində biosfer və cəmiyyət üçün ekoloji təhlükənin artması, genofondun korlanması, bioloji müxtəlifliyin və insan dəyərinin azalması bir sıra regionlarda insanların yaşaması, Yer kürəsində həyatın qorunması problemini kəskinləşdirir. Bununla belə, yüksək səmərəli və humanist yönümlü yeni dünyanın - postindustrial sivilizasiyanın konturları indi aydın şəkildə üzə çıxır. Bəşəriyyətin bütün tarixini müşayiət edən bir çox mənəvi hadisələrin aktivləşməsi baş verir. Onların arasında ənənəvi olaraq fərdi və ictimai orqanizmin müxtəlif aspektlərinə müstəsna təsir göstərən din də var.

Əsrlər boyu din insanın dünyaya, təbiətə, ümumən həyata münasibətini formalaşdırıb. Son onilliklərdə başlayan milli mədəniyyətlərin mənəvi dəyərlərinə kütləvi müraciət prosesi qanunların, əxlaqi və etik prinsiplərin axtarışı və formalaşdırılması ilə ayrılmaz şəkildə bağlıdır.

Din cəmiyyət tərəfindən şüuraltı olaraq sabit norma kimi qəbul edilir, onun bütövlüyünün təminatı kimi xidmət edir, sabitliyini və orijinallığını qoruyur. Gündəlik sosial həyatın bir hissəsi olduğu üçün cəmiyyətin əsas dəyərlərinin formalaşmasına əhəmiyyətli təsir göstərir [3, 8].

Dini şüur nisbətən müstəqil iki səviyyəni təmsil edir: dini psixologiya və dini ideologiya. Şüur cəmiyyətin inkişafına öz-özünə deyil, dini ideologiyanın əsasını təşkil edən müəyyən adi və ya nəzəri ideyalara əsaslanan insanların fəaliyyəti ilə təsir göstərir. İstənilən praktik insan fəaliyyəti təfəkkür sisteminə əsaslanır. Ona görə də fəaliyyətin xarakterinin dəyişməsi dünyagörüşün dəyişməsindən asılıdır. Fikrimizcə, mənəvi nemətlərə can atmaq, varlığın həqiqi dini dərk edilməsi bəşəriyyəti nicat yoluna apara bilər. İnsanların şüur və iradəsinə təsir edən dini normalar müəyyən davranış tipini formalaşdırır. Hüquq normalarından fərqli olaraq, onlar məcburi qüvvə ilə dəstəklənməyən mənəvi dəyərlər sistemi yaradırlar. Yəqin buna görə də dini postulatlar çox vaxt qanuni postulatlardan daha güclü olur. Bu isə o deməkdir ki, din ictimai şüurun mühüm komponenti və davamlı inkişaf amili kimi çıxış edə bilər.

Dini dəyərlər cəmiyyətin formalaşmasına və xalqların tarixi taleyinə ən böyük təsir göstərən amil olmuşdur. Məhz dünya dinləri imperiyaların formalaşması və fəaliyyət göstərməsi şəraitində sivilizasiya məkanını təchiz etməyə və onu indi gördüyümüz kimi təqdim etməyə kömək etdi. Müəyyən bir dinə etiqad edən fərdlər və sosial qruplar dini şüurun daşıyıcısı kimi çıxış edirlər. Dini şüurun xüsusiyyəti insanların insan ruhunun transsendent, fövqəltəbii kateqoriyalarında ən yüksək ölçülərinə istinad edərək ətraf aləmə yiyələnmək istəyidir. Dini şüurun əsasını dini dəyərlər təşkil edir.

Tarixi təcrübə və müasir sosial həyat təcrübəsi göstərir ki, həm bütövlükdə din, həm də onun ayrı-ayrı komponentləri, hətta bu ayrı-ayrı komponentlərin elementləri (o cümlədən dini dəyərlər) dini amil kimi çıxış edə bilər. Dini amil - dinin müəyyən bir sosial obyektə təsirini ifadə etməyə xidmət edən və bu spesifik şəraitdə müəyyən bir obyektin işləməsi və öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb edən anlayışdır.

Dini amilin məzmununa ondakı obyektiv və subyektiv münasibət baxımından da yanaşmaq olar. Dini amilin obyektiv tərkib hissəsi dindar nəslin:

- dini şüurun müəyyən məzmununda;
- mövcud dini münasibətlər sistemində;
- formalaşmış dini kultda;
- həmin dövrdə mövcud olan dini təşkilat şəklində
- tapdığı və ifadə etdiyi dini reallıqdır.

Dini amilin subyektiv komponentinə aşağıdakılar daxildir:

- bu və ya digər dini icmanın dünyəvi dünyada öz vəzifələrinə müəyyən baxışı;

- müəyyən bir dindar cəmiyyətdə bu vəzifələrin yerinə yetirilməsinə köklənmiş müəyyən hisslərin və iradənin olması.

Müstəqillikdən sonra Azərbaycanda dini və milli dəyərlərin dirçəlişi prosesi sürətlənmişdir. Qeyd edək ki, müstəqilliyin ilk illərində dindarlaşma prosesi ilə yanaşı, dini konfessiyaların sayında və miqyasında da əhəmiyyətli dərəcədə artım müşahidə edilməyə başlanmışdı. Bəzi radikal dini qrupların təsiri altında bu proses dini tolerantlıq mühitinə mənfi təsir göstərirdi. Statistik məlumatları nəzərdən keçirdikdə isə görürük ki, dindarlaşma prosesi nisbətən sabit xarakter almış və dövlətin din siyasəti nəticəsində dinlərarası və konfessiyalararası tolerant mühit təmin edilmişdir. Azərbaycanda dini mühitin inkişaf istiqamətinin təhlil edilməsi üçün həm tarixi-nəzəri yanaşmalara, həm də empirik-statistik tədqiqatlara ehtiyac hiss olunur. Belə tədqiqatlar cəmiyyətdə tolerant və multikultural münasibətlərin əsas amillərinin təsbit edilməsi, ictimai-siyasi, iqtisadi və digər sahələrdə dinamik dəyişikliklərin dini tolerantlıq mühitinə təsirlərinin təhlili, dini radikalizmin, dinin siyasiləşməsinin və fundamentalizmin qarşısının alınması istiqamətində işlərin aparılması üçün böyük əhəmiyyət kəsb edir [2, 13-14].

Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində fikir ayrılıqları və qarşıdurmalar olmayıb, əksinə, həmişə qarşılıqlı inam və hörmətə əsaslanan mütərəqqi milli, mədəni və dini münasibətlər mövcud olub. Müasir dünyada sürətlə gedən qloballaşma şəraitində baş verən mürəkkəb etno-siyasi proseslərdə dinin yeri və rolu, beynəlxalq münasibətlərdə və cəmiyyətdə dini amil, xalqlar üçün mədəniyyətlərarası dialoq kimi qlobal problemlərin müzakirəsi xüsusi əhəmiyyət kəsb edir. Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, dövlət-din münasibətlərinin nümunəvi modelinə malik, müxtəlif sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan kimi bir ölkədə bəşəriyyətin gələcəyi naminə bu günədək çoxlu sayda mötəbər tədbirlərin keçirilməsi təsadüfi deyil.

Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlət kimi bu gün dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti yürüdür, dünya birliyi ilə əlaqələrin, istər ikitərəfli, istərsə də çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişafına böyük önəm verir. Azərbaycan hökumətinin din siyasəti demokratik dövlət quruculuğu kursu ilə yanaşı, dövlət-din münasibətlərinin milli, mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsiplərinə əsaslanır.

Bu gün ölkədə mövcud olan ictimai sabitlik, vətəndaş həmrəyliyi, etnik dini tolerantlıq mühiti mütərəqqi tarixi ənənələrə söykənən milli siyasətin məntiqi nəticəsidir. Beləliklə, dini və milli-mənəvi dəyərlərin yüksək səviyyədə mühafizə edilərək qorunub saxlanılması, yetişməkdə olan gənc nəsillərə çatdırılması həmçinin davamlı inkişafın təmin edilməsi Azərbaycan hökumətinin qarşıya qoyduğu və çox böyük müvəffəqiyyətlə həyata keçirdiyi mühüm prioritetlərdən biridir.

## İstifadə olunmuş ədəbiyyat

1. Hüseynov S. Davamli inkişafin sosial və fəlsəfi problemləri. Bakı, "Elm və təhsil", 2019, 312 səh.

2. Qənbərov A. Azərbaycanda dövlət-din münasibətləri: dünyəviliyin nəzəri və hüquqi əsasları. Bakı, “Nurlar” Nəşryyat-Poliqrafiya Mərkəzi, 2019, 216 səh.

3. Борейко Ю. Г. Ценностный смысл обыденного сознания в повседневности религии // Science and Education a New Dimension. Humanities and Social Sciences. — 2015. — Vol. III (7), is. 42. — С. 7–11.

4. Канаева О.А. Социальные императивы устойчивого развития / Материалы Международного симпозиума «Устойчивое развитие общества и экономики», СПбГУ, 2015.

5. Марфин Н.Н. Устойчивое развитие человечества: учебник. М.: МГУ. 2007, с.596

6. Устойчивое развитие: Новые вызовы: Учебник для вузов (Под общ.ред. В.И.Данилова-Данильяна, Н.А.Пискуловой). М.: Изд-во «Аспект Пресс», 2015. 336 с.

7. Форрестер Дж. Мировая динамика: пер. с англ. А. Ворощука, С. Пегова Дж. Форрестер. — М.: АСТ, 2003. — 384 с.

8. Чумаков А. Н. Глобализация. Контуры целостного мира: монография / А. Н. Чумаков. — М.: Проспект, 2009. — 432 с.

## РЕЛИГИОЗНЫЕ ЦЕННОСТИ В УСТОЙЧИВОМ РАЗВИТИИ

**Азада Гулиева**

**Аннотация.**Статья посвящена изучению роли религиозных ценностей в устойчивом развитии. Автор проводит широкий анализ проблемы, описывая сущность этого явления, аналогично исследует роль религии в обществе, которая является одной из основных составляющих, и которая так же влияет на устойчивое развитие. Вместе с тем автором идентифицируются религиозные ценности, оказывающие наибольшее влияние на формирование общества и, конечно же, историческую судьбу народов.

**Ключевые слова:** устойчивое развитие, социально-экономическое развитие, концепция, религия, религиозные ценности, религиозное сознание

## RELIGIOUS VALUES IN SUSTAINABLE DEVELOPMENT

**Azada Qulieva**

**Abstract.**The article is devoted to the study of the role of religious values in the concept of sustainable development. Firstly, the author conducts a broad analysis of the problem of sustainable development, describes the essence of this phenomenon and interprets the content of the concept. The article also explores the role of religion in society, which is one of the main components influencing sustainable development. At the same time, religious values that have the greatest influence on the formation of society and the historical fate of peoples have been also studied.

**Keywords:** sustainable development, socio-economic development, concept, religion, religious values, religious consciousness.

**Rəyçi: f.e.d., prof. Sakit Hüseynov**